# Gəncə “saçlarına sığal çəkir...”







*Gəncədə hara baxırsan iş gedir. Hansı küçəyə qədəm qoyursan, bir yeniliklə qarşılaşırsan. Park və xiyabanlar öz görkəmini tamamilə dəyişib. Dəyişib deyəndə ki, dəyişdiriblər, gözəlliyə qərq ediblər, yaşıllığın qayğısına qalıblar, hər gülün, hər kolun nazını çəkiblər. Şəhər mənzil-kommunal təsərrüfat istehsalatı birliyi işçiləri özləri də etiraf edirlər ki, hələ indiyədək şəhərdə belə geniş miqyaslı iş görməyiblər.*

Bu yaxınlarda birliyin rəhbərliyinin dəyişdirilməsi də bu işlərin sürətlənməsinə, heç şübhəsiz, öz təsirini göstərib.Elmar Əzizovun təşəbbüskarlığı, yüksək təşkilatçılığı artıq hiss olunur. Amma bütün bu işlərin başında Niyazi Bayramov özü dayanır. Şəhərdə elə bir iş yoxdur ki, icra hakimiyyətinin başçısı orada olmasın, öz tapşırıq və tövsiyələrini verməsin. Əlaqədər strukturların rəhbərləri ilə elə şəhərdə, açıq havada görüşür, məsləhətləşir, layihələrə razılığını verir və ya müəyyən düzəlişlər edir, icrasının tezləşdirilməsini tapşırır.

Park və xiyabanlar orijinal üslubda, dövlət atributları ilə bəzədilir. Yeraltı keçidlərə gül dibçəkləri düzülür, sakinlər yaşıllığı qorumağa səsləndirilir. Eyni zamanda, qanunsuz küçə ticarətinin qarşısı alınır, reydlər təşkil olunur, adamlar arasında izahat-təbliğat işi aparılır. Bu görüşlərdə də şəhərin və Baş Polis İdarəsinin rəhbərliyi özü iştirak edir, adamlarla fərdi qaydada söhbətlər aparır.

...Qədim Gəncə sanki ayna qabağında dayanıb özünə sığal çəkir. İnsanların əhval ruhiyyəsi də Nizami yurdunun bu növrağı ilə həmahəngdir. Maraq üçün heç tanımadığın birisini saxla fikrini soruş, deyəcək ki, bu şəhər cənab Prezidentimizin diqqəti və qayğısı sayəsində bu vəziyyətə gəlib çıxıb. Onu qoruyub saxlamaq isə bizim borcumuzdur...

***Hamlet QASIMOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***